# GÖYƏRÇİN

İSSN-0207-4710
2011-ci il

5





Hekayə



Şeir



Nağıl

Nağıl vaxtı

# NƏ ÜÇÜN MEYMUNLAR AĞACDA YAŞAYIRLAR?

*(Eve-Afrika nağılı)*

Çöl pişiyi bütün günü meşədə ov axtarsa da, bir şey tuta bilmədi. O, bərk yorulmuşdu. Yerdə uzandı ki, bir az dincəlsin. Ancaq mozalanlar ona rahatlıq vermədilər ki, vermədilər. Birdən çöl pişiyi gördü ki, yaxınlıqdan bir meymun keçir. Onu çağırıb əmr etdi ki, mənim milçəyimi qov! Meymun razılaşdı. O, milçəkləri qovanda pişik yuxuya getdi. Meymun onun quyruğunu ağaca bağlayıb qaçdı. Pişik yuxudan oyandı. Durub getmək istəyəndə gördü ki, quyruğu ağaca bağlanıb.

Elə bu vaxt pişik yaxınlıqda bir ilbiz gördü. Ondan xahiş elədi ki, gəl mənim quyruğumu ağacdan aç!

İlbiz soruşdu:

-Səni azad etsəm, məni öldürməzsən ki?!

-Yox, yox, arxayın ol, – meymun onu xatircəm etdi.

İlbiz pişiyi azad etdi.

Çöl pişiyi evə gəlib heyvanlara dedi:

-Beş gündən sonra bütün meşəyə yayarsınız ki, mən ölmüşəm.

Heyvanlar onun arzusunu yerinə yetirdilər.

Çöl pişiyi ölü kimi yerdə uzanmışdı. Bütün heyvanlar gəlib onunla vidalaşdılar. Meymun da onların arasında idi. O, pişiyə yaxınlaşanda pişik qəflətən sıçrayıb onu tutmaq istədi. Meymun bərk qorxdu və ağaca dırmaşdı.

Belə deyirlər ki, meymunlar elə o vaxtdan ağacda yaşayırlar. Çünki onlar acıqlı çöl pişiyindən bərk qorxurlar.





# NƏ ÜÇÜN KƏKLİYİN QUYRUĞU YOXDUR?

*(Eve-Afrika nağılı)*

Mava quşlara qanad verəndə, onlara quyruq vermədi. Dedi ki, hər bir quş quyruğu öz pulu ilə almalıdır.

Quyruğu isə şəhərdə satırdılar. Quşlar ora gedib pul qazanır, sonra o pulu verib özlərinə quyruq alırdılar. Mava xəbərdarlıq etmişdi ki, kim vaxtında pul gətirməsə, quyruqsuz qalacaq.

Təyin edilən gün bütün quşlar uçub şəhərə getdilər və özlərinə quyruq aldılar. Təkcə kəklikdən xəbər-ətər yox idi. Onu xeyli gözləsələr də, kəklik gəlib çıxmadı.

Mava sonuncu quyruğu kəkliyin düşməni olan çöl göyərçininə satdı.

Çöl göyərçini uçub kəkliyin yanına gəldi. Quyruğunu göstərib forslandı:

-Ey, kəklik, şəhər uzaqda deyildi, vaxtında getsəydin, sən də özünə quyruq ala bilərdin.

Kəklik isə ona belə cavab verdi:

-Var-dövlət hələ xoşbəxtlik demək deyil!

Onlar mübahisə elədilər, dimdikləşdilər. Elə o vaxtdan çöl göyərçini kəkliyi görəndə kinayə ilə oxuyur:

-Şəhər uzaqda deyil, şəhər uzaqda deyil.

Kəklik isə özünü sındırmadan söyləyir:

-Var-dövlət hələ xoşbəxtlik demək deyil!

Elə o vaxtdan kəkliklə çöl göyərçini bir-biriləri ilə barışmayıblar.

*Tərcümə edib işləyəni:*
*R.Y. ƏLİYEV*

**Rəssam**
İlqar